**https://doi.org/10.58225/tim.2025-3-237-243**

**N.Ə.İsayev**
***"Əqli mülkiyyət" kafedrasının müdir müavini,***
***Azərbaycan Memarlıq və İnşaat Universitetinin***
***isayevnatiq@copag.gov.az***

*Məqalə redaksiyaya daxil olub 15.09.2025*
*The article was received by editorial board on 15.09.2025*
*Статья принята к печати 15.09.2025*

# YARADICILIQ NƏTİCƏLƏRİ VƏ YARADICI SƏNAYELƏR

**Xülasə**

*Müasir cəmiyyətdə yaradıcılıq fəaliyyəti, yaradıcılıq fəaliyyətinin nəticələri, yaradıcı sənaye və kreativ iqtisadiyyat anlayışları sözün həqiqi mənasında həyatımızın ayrılmaz hissəsinə çevrilmişdir. Bu anlayışlar müxtəlif sahələrdə, o cümlədən biznes, texnologiya, siyasət, mədəniyyət və incəsənət də daxil olmaqla, ən fərqli fəaliyyət sahələrində aktual müzakirə predmetinə çevrilmişdir. Bunun da başlıca səbəbi bəşriyyətin müasir inkişaf səviyyəsi ilə bağlıdır. Ümumiyyətlə, bəşəriyyətin inkişaf mərhələlərinin özünəməxsus xüsusiyyətləri elm adamlarını hər zaman maraqlandırmışdır. Hələ ötən əsrin 70-ci illərində tanınmış amerikalı alim, Harvard Universitetinin professoru Daniel Bell "Gələcək post-sənaye cəmiyyəti" əsərində bəşəriyyətin inkişaf mərhələlərini təhlil etmiş və onun üç fərqli səviyyəsinin olduğu barədə konsepsiya irəli sürmüşdü. Onun konsepsiyasına görə, inkişaf mərhələləri sənayeləşmədən əvvəlki aqrar dövrü, sənayeləşmə dövrü və postsənaye dövrü kimi müəyyən edilmişdi[1].*

*Onun irəli sürdüyü konsepsiyada əsas hərəkətverici qüvvəsi torpağın becərilməsində əl əməyinin hakim olduğu birinci dövr, texniki istehsal vasitələrinin getdikcə daha çox ixtira olunması və onlardan istifadənin başlanması dövrü kimi göstərilən ikinci dövr, sonuncu dövr isə əsas hərəkətverici qüvvəsi informasiya və xüsusi biliklərin tətbiqinə əsaslanan rəqabətqabiliyyətli "informasiya cəmiyyəti" kimi xarakterizə olunmuşdur. Buradan alınan nəticə ondan ibarətdir ki, onun göstərdiyi üçüncü dövr əslində yaradıcılıq nəticələrinin tətbiqi nəticəsində baş verən sənaye inqilabları dövrünü əhatə edir.*

***Açar sözlər:*** *yaradıcılıq, yaradıcılıq nəticələri, yaradıcı sənaye, müəlliflik hüququ və əlaqəli hüquqlara əsaslanan sənaye, kreativ sənaye, postsənaye inqilabı, kreativ sənayenin ümumi iqtisadiyyatda yeri və çəkisi.*

Bu dövr haqqında danışarkən ötən əsrin son onilliklərində Qərb ölkələrində sənaye dövründən sonrakı iqtisadi inkişaf mərhələsi olan postindustrial iqtisadiyyata keçidi sürətləndirən amillərin öyrənilməsi vacibdir. XX əsrin sonlarında inkişaf etmiş ölkələrdə ənənəvi sənaye strategiyasından post-sənaye dövrünə keçidə təsir edən amillər araşdırılarkən mütəxəssislər bunun birbaşa müəlliflik hüququ və əlaqəli hüquqlara əsaslanan və "yaradıcı sənaye" kimi tanınan kreativ sənaye ilə bağlı olması qənaətinə gəldilər. Bunun əyani sübutu kimi qısa müddət ərzində əhəmiyyətli gəlir gətirməsi və iş yerlərinin yaradılması ilə müşayiət olunan və daha çox əqli mülkiyyətin innovativ istehsalı və istifadəsi hesabına yaradılmağa başlayan "yaradıcı sənaye" sahələrinin iqtisadiyyatın aparıcı sahələrinə çevrilməsi göstərildi. Artıq bu dövrdə memarlıq, dizayn, təsviri sənət, musiqi, film və video istehsalı, moda, nəşriyyat işi, reklam, radio-televiziya yayımı, internet şəbəkəsi və s. sahələr iqtisadiyyatın əhəmiyyətli sektorlarına çevrildi. Belə iqtisadiyyatın əsas aparıcı qüvvəsi kimi isə biliklər və yeni informasiya texnologiyalar çıxış etməyə başladı. Xüsusən avtomatlaşdırma və robot texnologiyalarının istehsalda insan əməyini əvəzləməsi əsl inqilab effekti yaratdı. Bir sözlə, yaradıcılıq fəaliyyətinin nəticələrinə əsaslanan startaplar, texnoparklar, elmi-tədqiqat mərkəzləri,

---

[1] *Белл Д.* Грядущее постиндустриальное общество. — Москва: Академия, 1999.

kreativ sənayelər ön plana çıxdı. Nəticə özünü çox gözlətmədi və qabaqcıl Avropa ölkələrində kreativ sənayenin inkişafı milli iqtisadiyyatın prioritet istiqaməti elan edildi.

Azərbaycan da bu prosesdən kənarda qalmadı. XXI əsrin lap əvvəllərində hələ də əsasən neft və qaz sektoru üzərində dayanan iqtisadiyyatda postsənaye elementləri tədricən inkişaf etməyə başladı. Bu tendensiya özünü ilk növbədə dövlət və özəl sektor tərəfindən xidmətlər, təhsil, maliyyə, İT, turizm, nəqliyyat və loqistika kimi sahələrə qoyulan investisiyalarda göstərirdi. Bununla yanaşı, dövlət xidmətlərinin rəqəmsallaşması, sosial xidmətlərin səmərəliliyinin artırılması, bank sektorunun inkişafı, o cümlədən elektron ödənişlər və onlayn bankçılığın təşkili istiqamətlərində atılan əhəmiyyətli addımlar sonrakı illərdə qaznılan böyük uğurların təməlini qoydu.

Bu gün rəqəmsallaşma dövrünün reallığı, daha doğrusu, rəqəmsal hökumət, rəqəmsal iqtisadiyyat və rəqəmsal cəmiyyətə keçidin uğuru insanların rəqəmsallaşmanın tələblərinə nə dərəcədə hazır olmalarından çox asılıdır, çünki ən vacib amillərdən biri insanın rəqəmsal hazırlıq səviyyəsidir[2]. Buradan aydın olur ki, “kreativ iqtisadiyyat insan kapitalına əsaslanır, bu da öz növbəsində əmək resurslarının iqtisadiyyata töhfəsinin yeni baxışlarına sövq edir və investisiyaların təhsilə, elmə və mədəniyyətə artımını qarşısına məqsəd qoyur”[3]. Bununla əlaqədar Azərbaycanda həyata keçirilən kompleks tədbirlərin müsbət təsirlərini ən yaxın illərdə hiss etmək və ölkəmizi ən inkişaf etmiş dövlətlər sırasında görmək mümkün olacaqdır.

Yaradıcı sənayelərin rallığa çevrilməsi ilə əlaqədar "yaradıcılıq" anlayışının ənənəvi anlamı da dəyişdi, əvvəllər yalnız sənət adamlarına - yazıçılar, şairlər, bəstəkarlar, rəssamlar və s. aid edilən yaradıcılıq bu gün mədəni və sosial funksiyaları ilə yanaşı, daha çox iqtisadi funksiyasına görə müzakirə predmetinə çevrilir. Professor Kamran İmanova görə, kreativ iqtisadiyyat (Creator Economy) ümumi mənada – mədəni, dizayn və digər art məhsulların yaradılmasına cəlb olunan bizneslərdir. Yaradıcı sənayenin artan dünyəvi mühümlüyü və əhəmiyyətini nəzərə alaraq, BMT-nın Baş Assembleyasının 74-cü sessiyasının qərarı ilə 2021-ci il Beynəlxalq kreativ iqtisadiyyat ili elan edilmişdir[4].

Bu, kreativ sənaye sahələrinin müasir mərhələdə necə mühüm əhəmiyyətə malik olmasının göstəricisidir. Bir sıra qabaqcıl Qərb ölkələrində kreativ sənaye sahələri inkişaf templərinə görə getdikcə digər ənənəvi sahələri üstələyir. Açıq resurlarda olan məlumatlara görə, XXI əsrin əvvəllərində ABŞ-da müəllif hüquqlarına əsaslanan məhsulların çəkisi avtomobil istehsalı və ya kənd təsərrüfatı məhsullarından daha gəlirli sənaye sahəsinə çevrilmişdir. Belə tendensiya ölkəmizdə də müşahidə olunur. Əqli Mülkiyyət Agentliyində aparılan təhlil və hesablamalar göstərir ki, Azərbaycanın ÜDM-də kreativ sənayenin payı davamlı olaraq artmaqdadır. Ölkənin ÜDM-də kreativ sənayenin payı 2010-cu ildə 3,5%-dən 2024-ci ilin 1 yanvarına olan vəziyyətə görə 5,2%-ə çatmış və hazırda inkişaf etmiş ölkələr səviyyəsindədir. Bu da manatla ifadəsində 6619,8 mln. manat deməkdir[5].

Göründüyü kimi, bu gün yaradıcı sənaye sahələrinin müzakirə obyektinə çevrilməsinin başlıca qloballaşan dünyada əqli fəaliyyət nəticələrinin qorunması və kommersiyalaşdırılmasının ölkələrə böyük gəlir gətirməsidir, Məhz buna görə də əqli mülkiyyət sahəsinin inkişafı dövlət siyasətinin aparıcı xətlərindən birini təşkil edir.

Artıq XXI əsrdə dövlətlər yaradıcı sənayelərə mədəni və sosial dəyər yaradan vasitə kmi yox, eyni zamanda iqtisadi artıma, iş yerlərinin yaranmasına, məşğulluğun təmin edilməsinə və innovasiyaların cəlb olunmasına ciddi töhfə verən və iqtisadi artımı şərtləndirən vacib iqtisadi fenomen kimi baxırlar.

**Yaradıcı sənaye sahələrinə nəzəri baxış.** "Yaradıcı sənaye" termini ilk dəfə 1990-cı illərdən başlayaraq geniş şəkildə işlədilməyə başlamışdır. Bu anlayışın müxtəlif ifadə formaları olsa da (yaradıcı sənaye, müəlliflik hüququ və əlaqəli hüquqlara əsaslanan sənaye, kreativ sənaye) məzmununa görə onları sinonim anlayışlar hesab etmək olar. Bu anlayışları birləşdirən əsas xüsusiyyət onların hər birinin yaradıcı fəaliyyətə əsaslanan, intellektual mülkiyyət yaradan və onun kommersiyalaşdırılması yolu ilə iqtisadi dəyər formalaşdıran sənaye sahəsi olmasındadır. Elm, ədəbiyyat, incəsənət əsərləri, memarlıq və dizayn əsərləri, reklam, moda, kino, musiqi, proqram

---

[2] Rəqəmsal iqtisadiyyat. Dərslik. Bakı - 2023
[3] Kamran İmanov. Kreativ iqtisadiyyat: gələcək naminə innovasiyalar. Bakı - 2022
[4] Kamran İmanov. Kreativ iqtisadiyyat: gələcək naminə innovasiyalar. Bakı - 2022
[5] https://copat.gov.az/docs/Hesabatlar/hesabat_2024.pdf?_t=1749793228

təminatı və kompüter oyunları kimi sahələr qeyd olunan yaradıcı sənaye sahələrinin əhatə dairəsinə daxildir. .

Amerikalı iqtisadçı alim Riçard Florida 2002-ci ildə nəşr olunan "Kreativ sinif. Gələcəyi yaradan insanlar" əsərində yeni sosial sinfi təsvir edib və göstərib ki, onun formalaşması iqtisadiyyatı, coğrafiyanı və iş tərzimizi əhəmiyyətli dərəcədə dəyişdirib. Florida iqtisadiyyatda bir-biri ilə əlaqəsi olmayan müxtəlif dəyişikliklərin və ümumiyyətlə, dünyada baş verən qlobal dəyişikliyin baş verməsində yaradıcı sinfin aparıcı rol oynadığını və oynamaqda davam etdiyini göstərdi. Daha sonra yaradıcı sinfin profilini, onun sosial, demoqrafik və psixoloji xüsusiyyətlərini təsvir edərək iqtisadi inkişafa və yeni iş yerlərinin yaradılmasına təsirini göstərdi[6].

**Azərbaycan kontekstində yaradıcı sənayelərin iqtisadi, sosial və mədəni funksiyaları.** Qeyd oluduğu kimi, son illərin təcrübəsi göstərir ki, yaradıcı sənayelər müasir dövrdə ölkəmizdə bir sıra fərqli funksiyaları yerinə yetirir. Məsələn:

a) İqtisadi artımın stimullaşdırılmasında mühüm rol oynayır, xüsusilə qeyri-neft iqtisadiyyatının inkişafı üçün alternativ gəlir mənbəyi kimi çıxış eir, rəqəmsal mühitin formalaşması ilə yaradıcı məhsulların qlobal bazarlara çıxışını asanlaşdırır;

b) Yüksək təhsilli, innovativ və texnoloji biliklərə malik kadrlar üçün cəlbedici imkanlar açır, müasir biliklərə əsaslanan yeni iş yerləri yaradır;

c) Yüksək mənəvi və estetik dəyərlərə malik elm, ədəbiyyat və incəsənət əsərlərinin yaradılması və onlara əsaslanan müvafiq sənaye sahələrinin formalaşdırılması ilə milli mədəniyyətin və milli kimliyin qorunması və təşviqi, eyni zamanda milli mədəniyyətin beynəlxalq aləmdə tanıdılması təmin edilir. Bununla yanaşı, mədəniyyətlə bağlı yaradıcı sektorlar turizm cəlbediciliyini artırır, xüsusilə festivallar, sərgilər və kreativ tədbirlərin təşkili bu sahədə uğu əldə edilməsində əvəzsiz rol oynayır.

**Yaradıcı sənayelərin inkişaf potensialı.** Azərbaycan Respublikasında yaradıcı sənayelərin inkişafı üçün mühüm sosial, mədəni və iqtisadi potensial mövcuddur. Prezident İlham Əliyev tərəfindən Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: Sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" sənədində qeyri-neft sektorunun, o cümlədən yaradıcı sahələrin inkişafı xüsusi vurğulanmışdır. Sənədin "3.2. Yaradıcı və innovativ cəmiyyət" bölməsində göstərilir ki, "Gələcək dövrdə ən müasir texnoloji sahələri və innovasiyaları dəstəkləyən rəqəmsal cəmiyyət inkişafın aparıcı qüvvəsinə çevriləcəkdir. Ölkəni rəqabətdə irəli aparmaq üçün cəmiyyətin yaradıcılığını və innovativliyini stimullaşdıran ekosistem qurulmalıdır"[7].

Bu, müasir qloballaşan dünyada xüsusən zəruri və vacibdir. Çünki ölkəmizin müxtəlif bölgələrinin, xüsusən Qarabağ və bütövlükdə Şərqi Zəngəzur regionunun bərpası fonunda yaradıcılıq fəaliyyətinin nəticələri üzərində qurulan yaradıcı sektorların formalaşdırılması və fəaliyyətinin təmin edilməsi burada mədəni, sosial və iqtisadi sahələrin inkişafı üçün mühüm imkanlar açır, xüsusən yaradıcı təfəkkürlü istedadlı gənclərin bu prosesə cəlb edilməsi və onların fəaliyyətinin dəstəklənməsi bu sahədə rəqabət qabiliyyətini artırır və onları yeni yaradıcılıq nəticələrini yaratmağa həvəsləndirir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən "Böyük Qayıdış" Dövlət Proqramı çərçivəsində "Ağıllı şəhər" və "Ağıllı qəsəbə" layihələrinin reallaşdırılması, bu çərçivədə vətəndaşların həyat səviyyəsinin yaxşılaşdırılmasına, ictimai təyinatlı yerlərin abadlaşdırılmasına və infrastrukturun yaradılmasına yönəlik layihələrin icra olunmasında müəlliflik hüququna əsaslanan kreativ iqtisadiyyatın inkişafına xüsusi diqqət ayrılır. Son onilliklərin təcrübəsi də göstərir ki, əsasən gənclərin təmsil olunduğu startaplar və texnoloji parklar bu sahənin inkişafı üçün əlverişli platforma rolunu oynayır.

Son illər ölkəmizdə yaradıcılıq fəaliyyətinin dəstəklənməsi və stimullaşdırılması istiqamətində həyata keçirilən davamlı tədbirlər çərçivəsində "İxtiraçılıq fəaliyyətinin stimullaşdırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 15 iyun tarixli 1716 nömrəli Fərmanı xüsusi vurğulanmalıdır. Həmin Fərmanın icrasının təmin edilməsi ilə bağlı "İxtiraların və faydalı modellərin Patent Əməkdaşlıq Sazişi (PCT) beynəlxalq sistemi vasitəsilə xarici dövlətlərdə patentləşdirilməsi və

---

[6] Ричард Флорида, «Креативный класс. Люди, которые создают будущее». Издательство Манн, Иванов и Фербер, 2016.

[7] "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər". Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli 2469 nömrəli Sərəncamı ilə təsdiq edilmişdir.

onların ilk üç il müddətində qüvvədə saxlanılması üçün Azərbaycan Respublikasının vətəndaşı olan hüquq sahiblərinin ödədikləri xərclərin 50 (əlli) faizinin dövlət tərəfindən maliyyələşdirilməsi Qaydası" Nazirlər Kabinetinin 2022-ci il 9 dekabr tarixli 439 nömrəli Qərarı ilə təsdiq edilmişdir. Bu sənədlərin qəbul edilməsi ölkəmizdə ixtiraçılıq fəaliyyətinin stimullaşdırılmasına, beynəlxalq təşkilatlarda və xarici ölkələrin patent idarələrində Azərbaycan Respublikasının vətəndaşları olan hüquq sahiblərinin ixtiralarının qeydiyyata alınmasına müsbət təsir göstərmiş, patent fəallığını artırmışdır. Bu çərçivədə təkcə ötən ildə PCT beynəlxalq sistemi vasitəsilə bir faydalı modelin patentləşdirilməsinə və ilk üç il müddətində qüvvədə saxlanılmasına görə, habelə bir ixtiraya dair iddia sənədi milli faza mərhələsinə keçənədək hüquq sahibləri tərəfindən ödənilmiş vəsaitlərin 50 (əlli) faizi 2024-cü ildə dövlət büdcəsindən Agentliyə bu məqsəd üçün ayrılmış vəsait hesabına maliyyələşdirilmişdir[8].

Yaradıcı sektorların dəstəklənməsi istiqamətində dövlət və qeyri-hökumət sektorları arasında əməkdaşlıq təşəbbüslərinin güclənməsi də diqqətəlayiq haldır. İqtisadiyyat Nazirliyi, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Mədəniyyət Nazirliyi, Əqli Mülkiyyət Agentliyi, Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) kimi qurumların və bəzi özəl təşkilatların kreativ sahibkarlığın və yaradıcı sənayelərin inkişafı üçün həyata keçirdiklərdə müxtəlif formatlı layihə və tədbirlərin müsbət təsirləri artıq özünü göstərməkdədir.

Bunun nümunələrindən biri kimi, 2018-ci il dekabrın 18-də İsveçrənin Cenevrə şəhərində Ümumdünya Əqli Mülkiyyət Təşkilatının (ÜƏMT) Baş mənzil-qərargahında Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi münasibətilə Azərbaycanın innovativ və yüksək texnologiyalı startaplarına həsr olunan tədbiri qeyd etmək olar. Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi (indiki Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi), Əqli Mülkiyyət Agentliyi, ÜƏMT və Beynəlxalq Telekommunikasiya İttifaqının (BTİ) birgə təşkilatçılığı ilə keçirilən həmin sərgidə Azərbaycan startapçılarının hazırladığı 16 layihə təqdim olunmuşdu. Sərginin açılışında ölkəmizin ixrac potensialının gücləndirilməsi, əlverişli investisiya mühitinin formalaşdırılması, innovasiya fəaliyyətinin genişləndirilməsi istiqamətində ciddi addımlar atıldığı, daha çox istedadlı gənclərin təmsil olunduğu Azərbaycan startaplarının beynəlxalq müsabiqələrdə yüksək yerlər tutduğu və müxtəlif yaradıcı sektorlarda perspektivli layihələrin tətbiq olunduğu bildirilmiş, dövlətin bu sahənin inkişafına xüsusi diqqət yetirdiyi qeyd edilmişdir[9].

Mədəni yaradıcılıq nümunələrinin xaricdə təbliği ilə bağlı Əqli Mülkiyyət Agentliyinin təşkil etdiyi çoxsaylı tədbirləri də xatırlatmaq yerinə düşər. Elə həmin 2018-ci il sentyabrın 25-də ÜƏMT-nin İsveçrənin Cenevrə şəhərində yerləşən Mənzil-qərargahında Azərbaycanın zəngin mədəni irs nümunələrinin təbliği məqsədilə "Mədəni yaxınlıq: fərqliliyin vəhdəti" adlı tədbir keçirilib. Əqli Mülkiyyət Agentliyi tərəfindən Azərbaycanın Cenevrədəki BMT bölməsi və digər Beynəlxalq Təşkilatlar yanında Daimi Nümayəndəliyi ilə birgə təşkil olunan bu tədbirdə Agentlik tərəfindən xalqımıza məxsus coğrafi göstəricilər təqdim olunub, milli mədəni irs nümunələri kimi UNESCO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına daxil edilmiş xalça, kəlağayı, dolma və paxlava barədə ətraflı məlumatlar sərgilənib. Guşədə quraşdırılmış xüsusi ekranda Azərbaycan haqqında videoçarxlar nümayiş etdirilib, həmçinin tədbir iştirakçılarına Azərbaycanla bağlı suvenirlər təqdim olunub[10].

Təhsil Nazirliyi, Agentlik və ÜƏMT-nin fəal əməkdaşlığının nəticəsi olaraq, birgə hazırlanmış və əsas məqsədi ölkəmizdə elmi-tədqiqat nəticələrinin kommersiyalaşdırılması, tətbiqi mexanizmlərinin təkmilləşdirilməsi və həyata keçirilməsi, eyni zamanda universitetlərdə və elmi-tədqiqat müəssisələrində aparılan elmi-tədqiqat işlərinin nəticəsi olaraq yaradılan yüksək texnologiyaların iqtisadiyyatda tətbiqi üçün əlverişli şəraitin yaradılması və iqtisadi səmərəsinin artırılmasına xidmət göstərmək olan "Universitet və elmi-tədqiqat institutlarında əqli mülkiyyət siyasəti üçün milli Layihə" çərçivəsində 2018-ci il 4-5 iyun tarixlərində Əqli Mülkiyyət Agentliyi, Təhsil Nazirliyi, ÜƏMT və Avrasiya Patent Təşkilatının birgə təşkilatçılığı ilə "Bilik və innovasiya iqtisadiyyatına əqli mülkiyyətin dəstəyi" mövzusunda beynəlxalq konfrans və "Qeyri-maddi aktivlər

---

[8] https://copat.gov.az/docs/Hesabatlar/2022_Hesabat_Tam_NK.pdf.pdf?_t=1677221069

[9] https://copat.gov.az/az/news/cenevrd-azrbaycanin-innovativ-v-yuksk-texnologiyalar-uzr-startaplarina-hsr-olunan-tdbir-kecirilib

[10] https://copat.gov.az/az/news/cenevrd-azrbaycanin-zngin-mdni-irs-numunlrinin-tblig-edilmsi-mqsdil-tdbir-kecirilib

və qlobal dəyər zəncirləri: iqtisadiyyat innovasiyaların üstünlüklərindən necə faydalana bilər?" mövzusunda birgə regional seminar keçirilmişdir. Layihə çərçivəsində 2018-ci il iyun ayının 5-də Heydər Əliyev Mərkəzində təşkil olunan sərgidə əqli mülkiyyət sahəsinin, universitetlərin və elmi-akademik dairələrin nümayəndələri iştirak etmiş, 21 startap-layihə nümayiş olunmuş, onların 16-sı 7 yerli universitet, 2-si özəl şirkət, 3-ü AMEA (Yüksək Texnologilar Parkı) tərəfindən təqdim olunmuşdur[11]. Burada 2017-ci ildə Müəllif Hüquqları Agentliyinin iştirakı ilə Təhsil Nazirliyi və ÜƏMT arasında imzalanmış Birgə Bəyannamənin də məhz bu məqsədlərə xidmət etdiyini vurğulamaq lazımdır.

Mədəniyyət Nazirliyinin nəzdində fəaliyyət göstərən Mədəni və Yaradıcı Sənayelərin İnkişaf Mərkəzinin də əsas fəaliyyət istiqamətləri mədəni və yaradıcı sənayelər sahəsində müxtəlif layihələrin həyata keçirilməsi, gənc startapçıların dəstəklənməsi, bu sahədə görülən işlərin təbliğidir və bunun müsbət nəticələri vardır. Nazirliyin təşkilatçılığı ilə həyata keçirilən "Yaradıcı müzakirələr" layihəsi paytaxtda və regionlarda mədəniyyət və yaradıcılıq sahələrində bacarıqların inkişafını təşviq edən maarifləndirici təşəbbüs olaraq yaradıcı subyektlərin formalaşmasına və fəaliyyətinin dəstəklənməsinə yönəlmişdir[12]. Mədəniyyət Nazirliyinin yaratdığı və subyektlərin, fərdlərin və layihələrin tanıdılması, şəbəkələşməsi üçün platforma olan "Kreativ Azərbaycan" portalının bu sahədə fəaliyyətini də qeyd olunmalıdır. Bütün bunlar ölkəmizdə yaradıcılıq fəaliyyətinin stimullaşdırılmasına və yaradıcılığa əsaslanan sektorların inkişafına yeni impuls verir.

Beləliklə, yaradıcı sənayelər müasir iqtisadiyyatın dayanıqlı və inklüziv inkişafında mühüm rol oynayır. Onlar mədəni dəyərlərin yaradılması, zənginləşdirilməsi, qorunması və gələcək nəsillərə ötürülməsinə xidmət etməklə yanaşı, eyni zamanda mühüm sosial-iqtisadi fenomen kimi çıxış edirlər.

Bununla əlaqədar ölkəmizdə müəyyən edilmiş səmərəli strategiya, müasir təhsil, texnoloji dəstək, yaradıcılıq nəticələrinə olan müəllif hüquqlarının yüksək səviyyədə qorunması, yaradıcılıq nəticələrindən istifadə ilə bağlı maarifləndirmə tədbirlərinin artırılması, hüquqi xidmətlərin daha əlçatan olması, təkmil qanunvericilik və idarəçilik sisteminin yaradılması yaradıcı sektorun inkişafında mühüm rol oynayır. İnstitusional strukturların yaradılması, yeni infrastrukturların qurulması, müasir tələblərə cavab verən kadr hazırlığı, kreativ subyektlərin formalaşması və fəaliyyətinin genişlənməsi istiqamətlərində dövlət tərəfindən göstərilən strateji dəstək qlobal iqtisadiyyatın lokomotivinə çevrilmiş yaradıcı sənaye sahələrində gələcək uğurlar üçün əsas yaradır.

***İstifadə edilmiş ədəbiyyat:***

**1.** Kamran İmanov. (2022). "Kreativ iqtisadiyyat: gələcək naminə innovasiyalar". Bakı.

**2.** Kamran İmanov. (2018). "Əqli mülkiyyət iqtisadi kateqoriya kimi və onun iqtisadi inkişafdakı rolu". Bakı.

[11] https://copat.gov.az/az/news/azrbaycan-umumdunya-qli-mulkiyyt-tskilati-laqlri-genislnir

[12] https://culture.gov.az/az/activity/44

**3.** Kamran İmanov. (2019). "Kreativ iqtisadiyyat və kiçik və orta sahibkarlığın innovasiyalı inkişafı" Bakı.

**4.** Kamran İmanov. (2018). "Kreativ iqtisadiyyat və Azərbaycan iqtisadiyyatının inkişafı" Bakı.

**5.** Kamran İmanov. (2019). "Kreativ iqtisadiyyat, əqli mülkiyyət və iqtisadi artım". Bakı.

**6.** Kamran İmanov, Natiq İsayev. (2019). Əqli mülkiyyət. Bakı.

**7.** Проблемы развития инновационно-креативной экономики. Москва, 29 марта – 09 апреля 2010 года. Сборник докладов. «Креативная экономика». Москва. 2010.

**8.** Патласов Олег Юрьевич. Формирование креативного класса в условиях новой экономической реальности.

**9.** Амосова А.И., Кузнецова Е.А. (2022). Креативная экономика и ее значение. Иркутский государственный университет, г. Иркутск.

**10.** John Howkins. (2001). «The Creative Economy». London.

**N.A.Isayev**

*Deputy Head of the Department of "Intellectual Property",*
*Azerbaijan University of Architecture and Construction*

## Creative results and creative industries

**Abstract**

*In modern society, the concepts of creative activity, the results of creative activity, creative industries and creative economy have literally become an integral part of our lives. These concepts have become a topical subject of discussion in various fields, including business, technology, politics, culture and art, in the most diverse areas of activity. The main reason for this is related to the modern level of development of humanity. In general, the specific features of the stages of development of humanity have always interested scientists. Back in the 70s of the last century, the famous American scientist, professor of Harvard University Daniel Bell analyzed the stages of development of humanity in his work "The Future Post-Industrial Society" and put forward the concept that there are three different levels of it. According to his concept, the stages of development were defined as the pre-industrial agrarian period, the industrialization period and the post-industrial period.*

*In the concept he put forward, the first period, in which the main driving force was manual labor in the cultivation of the land, the second period, which was shown as the period of the increasing invention and use of technical means of production, and the last period, which was characterized as a competitive "information society" based on the application of information and special knowledge. The conclusion drawn from this is that the third period he showed actually covers the period of industrial revolutions that occurred as a result of the application of creative results.*

***Keywords:*** *creativity, creative results, creative industry, industry based on copyright and related rights, creative industry, post-industrial revolution, the place and weight of the creative industry in the general economy.*